*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 165-170* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.165*

# Toktoqul Satılqanov qırğız mədəniyyətinin üç dayağından biri kimi

**Nizami Məmmədov (Tağısoy)**
Filologiya elmləri doktoru, professor
Bakı Slavyan Universiteti
E-mail: nizami.mamedov@mail.ru

**Annotasiya.** Məqalədə Qırğızıstan mədəniyyəti tarixində əlamətdar iz qoymuş görkəmli qırğız akını, aytış janrının mükəmməl ustası Toktoqul Satılqanovun həyat və yaradıcılıq yolu araşdırılır. Bu mövzunun dolğun və dəqiq təhlili məqsədilə ilk dəfə öz tərcüməmizdə Azərbaycan oxucusuna təqdim etdiyimiz şeirlərindən konkret nümunələrə istinad edərək akının həm bütün çətin həyat yolu, həm də yaradıcılığının enişli-yoxuşlu mərhələləri öyrənilmişdir. Təəssüf hissi ilə qeyd edirik ki, indiyədək T.Satılqanovun lirik və satirik əsərləri Azərbaycan dilinə tərcümə olunmamış, dövri mətbuatımızda geniş yayılmamışdır.
**Açar sözlər:** akın, komuz, improvizə, nəğmə, ifa, sürgün, Sibir

**Məqalə tarixçəsi:** göndərilib – 07.10.2024; qəbul edilib – 17.10.2024

# Toktogul Satylganov as one of the three pillars of Kyrgyz culture

**Nizami Mammadov (Tagisoy)**
Doctor of Philological Sciences, Professor
Baku Slavic University
E-mail: nizami.mamedov@mail.ru

**Abstract.** In the presented article, the life path and creative originality of the outstanding Kyrgyz akyn, the excellent master of the genre of Aitysh Toktogul Satylganov, who left a significant mark on the history of Kyrgyz culture, are studied. For completeness and intelligibility of the analysis of this topic, we studied both the entire difficult path of life, and the thorny stage of life and all the features of the akyn's work, referring to specific samples of his poems, which we presented to Azerbaijani readers in our own translation. We note with regret that so far the aitysh, lyrical and satirical works of T.Satylganov have not been translated into Azerbaijani and have not been distributed in our periodicals.
**Keywords:** akyn, komuz, improvisation, song, performance, exile, Siberia

**Article history:** received – 07.10.2024; accepted − 17.10.2024

## Giriş / *Introduction*

Qırğızların tarixində yazılı ədəbiyyat ənənələrinin XX əsrə qədər mövcud olmadığı dövrdə xalqın həyatında aparıcı yeri onun poetik ənənələrini davam etdirən ırçı – nəğməkarların və akın-şairlərin yaradıcılığı tuturdu. Xalq içindən çıxmış akınların əksər hissəsi savadsız olsa da, onlar qırğız cəmiyyəti ilə feodal – tayfa əlaqələrində idi. Buna görə də akınların xalqla əlaqələrinin sıxlığı onların yaradıcılığının başlıca məzmununu təşkil edirdi. Onlar öz impovizasiyalı nəğmələrində xalqın arzu-istəklərinin və duyğu-ümidlərinin ifadəçisi kimi çıxış edirdilər.

Tayfa üzvləri arasında buxar-akınlar, bir tərəfdən, lap qədimdən mövcud olan xalq tərbiyə-

çisi, müəllim və ustad funksiyasını yerinə yetirirdilərsə, digər tərəfdən, xalqı feodal-tayfa rəhbərlərinin tərəfdarları olan manapların və bəylərin, varlıların və çar administrasiyasının özbaşınalığından qoruyurdular.

Qırğız akınları sırasında yalnız məhdud sayda akınlar vardı ki, onlar ərəb əlifbasını bildiyindən öz nəğmə impovizasiyalarını qələmə almaqla həm şifahi, həm də yazılı şəkildə yayırdılar. Toqolok Moldo, Əbülqasım Cukateyev, İsak Şaybekov və b. məhz belələrindən idi. Yazı-pozu qaydalarına yiyələnmiş bu akınlar sonralar getdikcə daha çox savadlı olduqlarından öz nəğmələrini poetik baxımdan cilalamaqla ona, həm də kitab elementlərini də daxil etməyə müvəffəq olurdular [4, s.430].

## Əsas hissə / *Main Part*

Qırğız şifahi, akın və yazılı ədəbiyyatının inkişafında, heç şübhəsiz ki, haqqında daha ətraflı bəhs edəcəyimiz Toktoqul Satılqanovun əməyi olduqca böyükdür. Onun yaradıcılığı Bəyimbet Abdrahmanov, Toqolok Moldo, Eşməmbet, Barpı Alıqulov, Alimqul Esembayev, Xalıq Akıyev, Yenijon Kokoyev, Moldo Qılınc, Atay Oqonbayev, Alıqul Osmanov, Sayakbay Karalayev və digərləri ilə yanaşı, qırğız akın ədəbiyyatının inkişafına yetərincə görümlü fərdi möhürünü vurmuşdur.

Toktoqul Satılqanov (1864-1933) Qırğızıstanın Fərqanə vadisinə yaxın olan Sasık Ciydə aulunda dünyaya göz açmışdır. Hazırda bura Toktoqul rayonu adlanır. Toktoqulun yaradıcılığı adlarını çəkdiyimiz digər akınlardan özünün parlaq istedadıyla fərqlənməsi ilə qırğız xalqının demokratik ənənələrinin ifadəçisi kimi milli mədəniyyət tarixində silinməz iz qoyub getmişdir [4, s.434].

Professor Pənah Xəlilov yazır ki, Toktoqul dövrünün istedadlı və cəsarətli akını olmuşdur. Eşməmbət, Canıbay, Kurman, Colay və başqa akınlar onu özlərinə ustad hesab edirlərmiş. Toqoloq Moldonun özü də üç ay Toktoqulun yanında qalaraq ondan çox şeylər öyrənmişdir [2, s.357]. Bu onunla bağlı idi ki, Toktoqul həqiqətən o qədər istedadlı imiş ki, hələ Oktyabr çevrilişi dövrünə qədər onun adı qırğız, qazax və özbək xalqları arasında geniş yayılmaqla onların içində olduqca məşhur idi. Onun yanına dərs almaq, ona şəyirdlik etmək məqsədilə ən tanınmış akınlar müraciət edirmişlər.

Toktoqulun impovizəetmə istedadı təxminən 12 yaşından özünü büruzə vermişdir. Onun istedadı hələ maddi ehtiyac ucbatından Qazanbay bəyin sürüsünə çobanlıq etdiyi dövrdən kükrəmişdir. Ömrü boyu varlıların yoxsullar üzərində hegemonluğunun şahidi olmuş və belə vəziyyətə qarşı amansız mübarizə aparmışdır. Poetik sözə lap uşaqlıqdan meyilli olan Tokoqul özünü dolandırmaq üçün əlində komuzu (qopuzu) bəylərin yaşadığı yerlərə – qışda qışlaqlara, yayda yaylaqlara gedir, nəğmələr oxuyur, xalqın çətin və dözülməz məişət həyatının şahidi olur, poetik məharətini cilalayır, qırğız, qazax və özbək nəğməkarları ilə görüşüb, özünün peşəkar ustalığını artırırmış [4, s.434].

Toktoqul 14 yaşına çatanda onun nəğmə ifa etmək bacarığı yüksək olduğundan artıq bəylərə çobanlıq etmir, ən tanınmış akınlarla poetik məclislərin iştirakçısı olur. Məhz belə ustalığı sayəsində Toktoqul daha da geniş tanınır və xalqın məhəbbətini qazanır. Toktoqulun şeirlərinin dili dağ çeşməsinin gözü kimi dumduru və büllur olmaqla onlarda öz əksini tapmış fikir və hisslər son dərəcə yetkin və dərindir. Həyat vurğunu olan akın daim yaradıcı əməyə böyük qiymət verir, insan ömrünün başlıca mənasını həyatda görür, xalqlar arasında dostluğu tərənnüm edir, insan mənəviyyatını yüksək tutan sevgi hissini hər şeyin fövqündə qoyurdu [5, s.362].

Toktoqul bütün fikir və düşüncəsi ilə daim əzilmişlərin və təhqir edilmişlərin yanında olurdu. Bunu dərindən anlayan Kətmən-Tübə manapı Diykanbay onu susdurmağa can atır. Məkirli məqsədinə yetişmək üçün Diykanbay öz xidmətçisi olan Arzımat adlı nəğməkarı çirkin məqsədinə nail olmaq üçün Toktoqulun üstünə göndərir. Amma Toktoqul manap tərəfindən qurulmuş bu oyundan böyük ustalıqla çıxır. Bunu biz Toktoqulun “Arzımata” şeirindən də yaxşı görə bilərik:

*Xanla birliyinlə gəl öyünmə sən,*
*Düşünmə Diykanbay səni çox sevir.*
*Bir də qürrələnmə mənliyinlə sən,*

*Bəy səni bir qoça qonaq edəcək.*
*Bunu da yaxşı bil – nəğmə demirsən,*
*Sankı qarğa kimi qarıldayırsan.*
*Manapın dalınca addımlayırsan,*
*Gözünü dikmisən yağlı tikəyə.*
*Utanmaz, arsızsan – gülüşün bəlli,*
*Mən kasıbam deyə ağız büzürsən.*
*Deyək mən kasıbam, geyimim nimdaş,*
*Amma mən azadam – sən isə qulsan.**

Arzımata verdiyi belə dəlici, sarkastik cavabdan sonra Toktorulun xalq arasında nüfuzu daha da yüksəlir. Akının səsi yetərincə möhkəmlənir. Arzımatla olan bu aytışdan (aytış, aytıs – poetik yarış deməkdir) sonra onun improvizasiyasında daha fərqli və mühüm yaradıcılıq formaları ortaya çıxmağa başlayır. Kifayət qədər artistizm ustalığına malik olan Toktoqul aytışı sanki teatrallaşmış tamaşa halına gətirməklə bu tipli əsərlərində bayları, manapları, işanları, mollaları satirik hədəfə çevirərək onların iç üzünü xalqa nümayiş etdirir.

Belə dəlici aytışdan sonra Toktoqulu xalq arasında daha geniş məşhurlaşdıran digər bir satirik "Beş qaban" ("Beş koman") şeiri yaranır ki, bu nəğmədə xalqı talayan onun yaşadığı nahiyənin ən varlı adamı Rısqulbəyin beş talançı və oğru oğullarını hədəf kimi seçir. Nahiyə rəisi Toktoqula onun yanına gələn ruhaniləri öyməyi xahiş etdikdə, Toktoqul xalqı aldadan belə həyasız insanların hamısını çəkinmədən tənqid atəşinə tutur. Məclis sahibi, nahiyə idarəçisi Toktoquldan onları tərənnüm edən nəğməni oxumalarını bir də tələb etdikdə istedadlı akın ona olduqca böyük məharətlə cavab verir: "Hər kəs öz sözünün ağasıdır. Mən cinayət etmədim, yalnız onların fəaliyyəti ilə bağlı nəğmə oxudum. Əgər akın həqiqəti tərənnüm etmirsə, deməli, o, akın deyil" [5, s.363].

Toktoqulun "Beş qaban" şeirindən bir parçanı illüstrasiya etməklə dediklərimizi daha yaxşı təsdiqləyə bilərik:

*Nahiyə rəisi, qəzəblənirsən?!*
*Xalqının başına oyun açırsan –*
*Əziz insanlara sən zülm edirsən.*
.........................................
*Görünür, istədin yalan söyləyim,*
*Görünür, istədin səni öyüm mən.*
*Elə ki, töhməti, nifrəti gördün,*
*Sanki donuz olub xoruldadın sən.*
*Mən saya gəlməyən nəğmələr qoşdum,*
*Doğma torpağımda, aullarımda.*
*Mən lap gənc yaşımdan nəğmə deyirəm,*
*Heç vaxt, heç birində olmayıb yalan.*

Lakin az keçmir ki, zənginlər, manaplar, Rısqulbəyin oğulları, xalqı çapıb-talayanlar akına öz nifrətlərini bildirərək ondan qisas almağa müvəffəq olurlar.

Belə ki, 1898-ci ildə Əndican üsyanı zamanı bu hadisənin iştirakçılarının axtarışları aparılarkən Toktoqul onu satanların, baqaja qoyanların "xidməti" sayəsində ələ keçirilir və edam edilməsi ilə bağlı haqqında fərman çıxarılır. Həmin vaxt 383 məhkumdan hadisələrin başçısı olan Mədəli-işan başda olmaqla onların xeyli hissəsi edam edilir. Qalanlarını "böyük mərhəmət göstərilərək" 7 il müddətinə Sibirə katorqaya göndərirlər.

Sibirdə sürgündə olduğu zaman Toktoqul keçilməz tayqa meşələrinin təmizlənməsində, qızıl, gümüş və qurğuşun mədənlərində çalışır. 1904-cü ildə çar tərəfindən bağışlanılma məsələsindən sonra məhkumların qandalları çıxarılır. Toktoqul Aleksandrovski sentralda Kruq-Baykal dəmiryolunun tikintisində tunellərin qazılmasında iştirak edir. Bütün bu çətin illərdə Toktoqulun bülbül kimi cəh-cəh vuran səsi səngimək bilmir. Böyük çətinliklə olsa da, sürgündən qaça bilir. Min bir əzab-əziyyətlə bir il ərzində yol qət edib, evə qayıtdıqdan sonra 1913-cü ildə onunla bağlı yenidən donos edilir və o bu dəfə Namanqan zindanına salınır. Bu dövrdə Toktoqulun azad olunması üçün sanki bütün Qırğızıstan ayağa qalxır, bağışlanması ilə bağlı vəsait toplanır. Nəhayət, xalqın mübarizəsi öz bəhrəsini verir. Bundan sonra Toktoqul azad edilir və öz peşəkar ifaçılığını davam etdirir [8].

Toktoqul nəinki orijinal ifaçılığını, həm də improvizasiyasını cilalayır. Xalqın zəngin epik yaddaşında əsrlər boyu daşlaşmış dastanlara müraciət edir, onlardan bəzi parçaları böyük ustalıqla ifa edir. Tanınmış qırğız akını, vaxtilə Toktoqulun şəyirdi olmuş Xalıq Akıyevin dediyinə görə, onun repertuarında "Manas" dastanı, o cümlədən bu eposun mühüm tərkib hissəsin-

* Burada və bundan sonra məqalədə yer almış şeir parçalarının tərcüməsi müəllifə məxsusdur.

dən biri olan "Semetey"dən ayrı-ayrı parçalar da yer almışdır.

Onu da söyləyək ki, hələ 1910-cu ildə o, sürgündən bir neçə uğursuz qaçışdan sonra Qazaxıstan səhraları ilə gizli yollarla Qırğızıstana qayıda bilir. Bütün bu rəzalətlərə baxmayaraq, katorqa həyatı Toktoqulun xarakterini zədələyə, onu mənəvi cəhətdən sındıra bilmir. O, xarakteri etibarı ilə daha da möhkəmlənir və xalq idealları uğrunda mübarizəsini davam etdirir [5, s.363].

Toktoqulun poetik yaradıcılığının zirvəsini onun sürgündə olduğu illərdə yazdığı "Sibir nəğmələri" silsiləsi təşkil edir. O, zindanda olarkən nəğmələrini oxumaqla məşğul olur. Toktoqulun məhbəs həyatının şahidi olan Bolot Cırtakov xatirələrində akının son dərəcə böyük ruh yüksəkliyi ilə etdiyi ifasından bəhs edərək yazır: "Bir gün dombagöz, burmabığ türmə nəzarətçisi içəri girərək: "Susun. Bura sizin üçün şənlənmə yeri deyil", – deyə qışqırır və Toktoqula yaxınlaşaraq onun əlindən balalaykanı alıb, iki hissəyə bölür, ayaqları altına salıb tapdalayaraq Toktoqula: "Dəli şeytan, daim sən böyürürsən!" – deyir. Toktoqul bu zaman özünü saxlaya bilməyib, ona nə isə söyür. Bu anda türmə nəzarətçisi onun sifətinə var gücü ilə bir sillə vurur. Belə halda mən dözməyib qandallı əllərimlə onun çənəsinin altından necə bir güclü zərbə vurdumsa, bu zərbədən nəzarətçi böyrü üstə yerə yıxıldı..." [9].

Bir daha qeyd edək ki, Toktoqul sürgün illərində də yaradıcılığını davam etdirmişdir. Həmin dövrlərdə onun qələmə aldığı "Həyat çox əzablıdır", "Mən qartal kimi dağlarda uçurdum", "Məgər qanun belədir", "Məhbus nəğməsi", "Vətəndən uzaqlarda", "Məhbəsdən qaçma nəğməsi" və s. nəğmələrində o, dözülməz zindan məşəqqətlərini təsvir edir. Toktoqul Omsk zindanında, İrkutsk yaxınlığındakı Aleksandrovski sentral türməsində yatdığı zaman burada, əsasən, siyasi baxışlarına görə sürgün edilənlər yatırdı. Ora əsl cəhənnəmi xatırlardırmış. Çünki orada insanlar açıq-açığına alçaldılır, türmə nəzarətçiləri onların vicdan və ləyaqətinə toxunmaqdan xüsusi həzz alırdılar. Belə dözülməz şəraitdə Toktoqul nəinki öz istedadını qoruyub inkişaf etdirə bilir, özünü şəxsiyyət kimi göstərməyə çalışır, əsərlərində son dərəcə kəskin sosial problemlərdən bəhs etməklə mübarizəsini davam etdirir, həm də rus, tatar, qazax xalqlarının nümayəndələri ilə yaxından ünsiyyətdə olurdu.

Toktoqulun əksər nəğmələrində onun xalq idealları ilə sıx əlaqələrini, xalq poetik mədəniyyəti ilə ünsiyyətdə olduğunu şairin kəskin sosial-ictimai ruhlu şeirlərində, sevgi-məhəbbət məzmunlu lirikasında görürük. Bu baxımdan böyük akının "Alımxan" nəğməsi daha çox diqqətçəkəndir. Çünki bu əsərdə sevgi məhz insan hisslərini daha da yüksəldən, həyat mənbəyi olan, sadiqlik nümunəsi kimi diqqət mərkəzində dayanır.

Tədqiqatçılar belə bir fikirdə həmrəydirlər ki, Toktoqulun bir xalq akını kimi formalaşması XIX əsrin 80-ci illərinin əvvəllərinə təsadüf edir. Həmin dövrlərdə o, "Nasılxan", "Suyumxan", "Alımxan" və s. bu kimi qırğız xalq məhəbbət lirikasının klassik örnəklərini yaradır. Bu elə bir dövr idi ki, bu zaman bəylər, manaplar və hakim dairələrin digər nümayəndələri xalqı daha çox istismar edirdilər. Belə vəziyyətdə Toktoqul öz yaradıcılığı ilə daim istismar olunanların düşərgəsində idi. Toktoqul yaradıcılığında qədim akın-tərbiyəçi ənənəsi, əsl xalq akınının təbii tələb və ehtiyacları ilə üst-üstə düşməklə, həm də belə fəaliyyəti ilə sanki qazaxlarda Cambul, qaraqalpaqlarda Berdağ, Hacıniyaz, özbəklərdə Fazil Yuldaş və başqa əzilmiş xalqın kasıb təbəqələrinin xilaskarı kimi çıxış edirdi.

Toktoqul Sibirə sürgün edilərkən söylədiyi "Əlvida, xalqım!", "Əlvida, anam!" və s. nəğmələrində akının həyatında baş verən faciəvi hadisələrlə bağlı fikir və düşüncələri, onların sosial həyatla əlaqələri və s. öz əksini tapırdı. Son dərəcə yığcam şeirlərindən birində istismarçılar tərəfindən necə təqib olunduğunu Toktoqul xalqa hədəfə dəyən lakonik misralarla çatdırırdı:

*Görürəm – yanımda qazax,*
*Rus, qırğız, özbək.*
*Görürəm: dayanıblar,*
*Mənim kimi bədbəxtlər.*
*Hər biri qardaş və dost,*
*Hər biri mən tək məhbus.*

Qeyd etmək zəruridir ki, Toktoqulun poetik yaradıcılığı o, sürgündən qayıdandan sonra xü-

susilə fəallaşmışdır. Bu dövrdə digər akınlarla poetik yarışlarda iştirak etmək üçün aytış janrı daha çox ön plana çıxırdı. O özünün çoxsaylı yetirmələri Eşməmbet, Barpı Alıqulov, Alimqul Usenbayev, Xalıq Akıyev və başqa bu kimi akınlarla yarışlarda öz poetik fəhmini sınayır, daha böyük uğurlara imza atırdı.

Toktoqulun qırğız gerçəkliyinin ayrı-ayrı məqamlarını tənqid atəşinə tutan, ən başlıcası, xalqın kasıb təbəqələrini istismar edib aldadan, feodalları ifsa edən "Üç xoca", "Dolaşa və kərkincək", "Qəmli quşcuğaz", "Beş qaban", "Sələmçi Çakırbay", "Arzımata", "Muradbəy", "Eşənqalpa", "Diykanbay ehsan verdiyi məclisdə oxunmuş nəğmə" və s. satirik əsərlərinin böyük təsir gücü də burada qeyd edilməlidir [4, s.437].

Toktoqul sözün həqiqi mənasında böyük sənətkar idi. Onun komuzda (qopuzda) virtuoz ifası heç kəsi, o cümlədən hətta sürgündə dözülməz şəraitdə yaşayanları belə laqeyd buraxmırdı. Təsadüfi deyildir ki, Toktoqul "Hətta əsgər də mən ifa edəndə susurdu", – deyə xatırlayırdı.

Sonuncu qaçış zamanı Vətənə qayıdarkən yazdığı "Qazax torpağında" adlı nəğməsində ona qaçmaqda kömək edən Xariton və Semyon kimi sürgün dostları haqqında xoş sözlər söyləyərək belə bir əminlik ifadə edirdi ki, mütləqiyyət çökəcək, ədalət zəfər çalacaqdır. Lakin Toktoqul öz elinə-obasına yetişəndə onu taleyin yeni sınaqları, zərbələri gözləyirmiş. Belə ki, böyük akının yeganə oğlu Toktoqul sürgündə olarkən dünyasını dəyişir. Arvadını isə onun qayıdacağına ümid olmadığından başqasına ərə verirlər. Doğma aulda Toktoqulu yalnız dünya işığına həsrət qalmış anası qarşılayır. O, iki il sərasər çar məmurlarından auldan aula keçməklə gizlənir [8].

Bütün bunlar, heç şübhəsiz ki, Toktoqulun içində son dərəcə ağır kədər hissi doğurur. Onun hisslərinə su ciləyən, əsəblərinə aram gətirən doğma xalqı ilə olan sıx birliyi akını yenidən ilhama səsləyir [5, s.364].

Çəkinmədən deyə bilərik ki,Toktoqulun yaradıcılığı qırğız akın ədəbiyyatının ən parlaq səhifələrindəndir. Məhz buna görə də böyük sənətkarın yaradıcılıq irsinin qorunması qeydinə qalmaq tədqiqatçıları daha çox düşündürürdü. Bu məqsədlə Bişkekə (o vaxtkı Frunze) dəvət olunan, Toktoqul yaradıcılığı ilə Orta Asiya və Qazaxıstanda toplayıcılıq fəaliyyəti ilə məşğul olan Aleksandr Zatayeviç qazax və qırğız şifahi xalq eposu nümunələrini, musiqi mədəniyyətini dərindən bilməklə onun bir sıra musiqili pyeslərini və melodiyalarını yazıya alır. Elə buradaca bildirək ki, Toktoqulun istedadlı sənətkar kimi parladığının tarixi sübutu onun yaradıcılıq irsinə M.Qorki, M.Kalinin, F.Fadeyev və başqa bu kimi nəhəng yazıçıların və mədəniyyət xadimlərinin verdiyi dəyəri biz onların çoxsaylı çıxış və məqalələrində görürük.

Böyük qırğız yazıçısı Ç.Aytmatov 1989-cu ildə nəşr olunmuş "Toktoqul" kitabına həsr etdiyi müqəddimədə yazırdı: "Bizim Toktoqul akademik təhsil almamışdır. Buna baxmayaraq, o, son dərəcə istedadlı improvizator, qırğız torpağının əvəzsiz nəğməkarı idi. Eyni zamanda Ç.Aytmatov burada sosialist ideologiyasının tələblərindən çıxış edərək bunu da qeyd edirdi ki, Toktoqulun həm də inqilabçı şair, xalq mütəfəkkiri, mübariz kimi adı dünya poeziyasının nəhəngləri ilə bir sırada dayanır [10].

Qırğız tədqiqatçısı Qamçıbəy Düşəliyev isə Toktoqul Satılqanovu akın poeziyasının ən parlaq və populyar improvizator sənətkarların nümayəndəsi hesab etməklə, həm də onun şifahi ənənəyə söykənən xeyli sayda professional akınlar yetişdirdiyini qeyd edirdi. Eyni zamanda tənqidçi bunu da vurğulayırdı ki, T.Satılqanovun akın-nəğmə yaradıcılığının novatorluq xüsusiyyətlərindən biri onun xeyli sayda məişət-folklor-nəğmə janrlarının özünəməxsus şəkildə novatorcasına interpretasiya edərkən onların aktuallığını ortaya qoyması ilə bağlıdır.

Toktoqul Satılqanovun yaradıcılığı digər tənqidi ədəbiyyat nümunələrində də yetərincə təqdim olunmuşdur. V.S.Vinoqradovun "Toktoqulun musiqi irsi" [7], B.Malenovun "Böyük akın-demokrat" [6], M.Abdrayev və B.Alaquşovun "Toktoqul-bəstəkar" [1], "Qırğız sovet ədəbiyyatı" [3] və digər yazılı mənbələrdə, çoxsaylı internet resurslarında da yer almışdır.

Onu da qeyd etməyi zəruri hesab edirik ki, yaradıcılığı, nəğmələri xalq yaddaşında yaşayan dahi akının bədii irsi onun yetirmələri tərəfindən ardıcıl olaraq yazıya alınmışdır. Nəğmələrinin bir yerə toplandığı iki kitab nəşr olunmaqla xalqın əbədi yaddaşına ötürülmüşdür.

İstedadlı akın haqqında bir sıra qırğız dramaturqları dram əsərləri yaratmışlar. Bu kontekstdə Comərd Bokonbayevın "Toktoqul", Qasımalı Cantoşevin "Xalq nəğməkarı", Reyhan Şükürbəyevin "Akının ümidi", Toktobolot Addumomunovun "Sevgi və ümid", Toloqon Qasımbəyovun "Alımxan" kimi müxtəlif janrlarda qələmə alınmış nümunələrin adlarını çəkə bilərik.

## Nəticə / *Conclusion*

Qeyd etmək lazımdır ki, Toktoqul Satılqanov yaradıcılığı qırğız akın ədəbiyyatı, xüsusən poeziyası tarixində özünə elə bir möhtəşəm mövqe qazanmışdır ki, onun qopuzundan süzülüb gələn səs özünün vurtuoz ifaçılıq bacarığı ilə qırğız milli mədəniyyətində əbədi olaraq silinməz izlər buraxmışdır. Odur ki, qırğız mədəniyyəti tarixində bizə məlum olan üç möhtəşəm imzadan danışdıqda biz bunları "Manas" – Toktoqul Satılqanov – Çingiz Aytmatov" üçbucağında birləşdirə bilərik. Toktoqul Satılqanov "Manas" epos düşüncəsi ilə Çingiz Aytmatovun bədii yaradıcılıq təfəkkürünü bir-birinə birləşdirən son dərəcə mühüm bir həlqə kimi möhtəşəm bənddir. Bu həlqənin T.Satılqanov bəndinin əhəmiyyəti qırğız mədəniyyəti tarixində unikal hadisə olmaqla heç zaman aktuallığını itirməyəcəkdir.

## Ədəbiyyat / *References*


1. Абдраев, М., Алагушов, Б. Токтогул-композитор. – Фрунзе, 1964.
2. Xəlilov, P. SSRİ xalqları ədəbiyyatı. – Bakı: Maarif, 1966. – 410 s.
3. История киргизской советской литературы. – Москва, 1970.
4. Киргизская литература. Литература народов Средней Азии и Казахстана. – Москва: Изд-во Московского университета, 1960.
5. Климович, Л.И. Литература народов СССР. В 2-х ч., ч. 2. Изд. 3-е, перераб. – Москва: «Просвещение», 1971. – 473 s.
6. Маленов, Б. Великий акын-демократ. – Фрунзе, 1964.
7. Виноградов, В.С. Музыкальное наследие Токтогула. – Москва, 1961.
8. Личность Кыргызстана…limon.kg
9. Сатылганов Токтогу…ru.m.wikipedia.org.
10. Сатылганов Токтогул wiki.ru-ru.nina.az


## Токтогул Сатылганов как один из трех столпов киргизской культуры


**Низами Мамедов (Тагисой)**
Доктор филологических наук, профессор
Бакинский славянский университет
E-mail: nizami.mamedov@mail.ru



**Резюме.** В представленной статье изучению подвергаются жизненный путь и творческое своеобразие выдающегося киргизского акына, превосходного мастера жанра айтыш – Токтогула Сатылганова, оставившего значительный след в истории киргизской культуры. Для полного и точного анализа данной темы изучен как весь трудный жизненный путь, так и тернистые этапы, и особенности творчества акына. Обращаясь к конкретным образцам из его стихов, впервые представленных азербайджанским читателям в собственном переводе, автор статьи с сожалением отмечает, что до сих пор айтышы, лирическое и сатирическое творчество Т.Сатылганова не переведены на азербайджанский язык и не распространены в нашей периодической печати.


**Ключевые слова:** акын, комуз, импровизация, песня, исполнение, ссылка, Сибирь